# *Universitetin Websayt məmnunluq sorğusunun təhlili*

14.11.2024 tarixində Qərbi Kaspi Universitetində Keyfiyyət Təminatı Mərkəzinin əməkdaşları tərəfindən tələbələr arasında QKU website məmnunluq sorğuları keçirilmişdir. Sorğuda 184 tələbə iştirak edib, suallar üzrə təsvirlər aşağıdakı kimidir:




**Tələbələr universitetin websaytından istifadə edirsiniz sualı üzrə 175 tələbə (95.1%) "bəli" və 9 tələbə (4.9%) "xeyr" seçimini edib.**




**Tələbələr universitetin websaytına hansı cihaz vasitəsilə daxil olursunuz sualı üzrə 167 tələbə (90.8%) "telefon" və 17 tələbə (9.2%) "komputer" seçimini edib.**

WESTERN caspian UNIVERSITY

3.Saytın dizaynını bəyənirsiniz mi?

184 responses




**Tələbələrin websaytın dizaynından məmnunluğu 1 və 10 bal arasından azdan çoxa doğru, yəni, 1- heç məmnun deyiləm, 10- çox məmnunam kimi qiymətləndirilməsi istənilir. Şkalanın yüksək göstəriciləri yəni 8-9-10 müvafiq olaraq 13.6%(25 tələbə); 8.2%(15 tələbə); 24.5% (45 tələbə) ilə total 46.3% (85 tələbə) məmnun olmayan rəylər çoxluq təşkil edir.**

4.Axtardığınız məlumatı asanlıqla əldə edə bilirsiniz mi?

184 responses




**Tələbələr axtardığınız məlumatı asanlıqla əldə edə bilirsiniz sualı üzrə 137 tələbə (74.5%) "bəli" , 14 tələbə (7.6%) "xeyr" və 33 tələbə (17.9%) "nadir hallarda" seçimini edib.**

5.Saytla bağlı hansı problemlərlə qarşılaşmısınız ?

1. Gec yenilənir məlumatlar, gec açılır

2. Şəxsi kabinetdə Arada daxil olmaqda çətinlik çəkirəm həmdə interaktiv yeri işləmir

3. Qiymetler gec bir sekilde sayta yuklenir. Qiymetlerimi telegram botdan öyrənirəm həmişə ama sayta girende bir neçə gün qiymətlər orda guncellenmir

4. Dizayn ( UI/UX ), Sexsi kabinet ( PHP yeni versiyasi deyismelidi deyisilibse eger dizayn ve istifadeci yonumlu deyil), Site ( Dynamic deyil - hazır şablon üstünde istifade edilib statikdi, melumatlar aktiv şekilde əlave olunmur)

5. ciddi problemler yoxdur, lakin yazilarin keyfiyyetinin artirilmasini teleb ederdim

6. Dərslikləri yükləyərkən eror verir

7. Şexsi kaninetde olan ders vesaitleri ile baglı problem olur. Muellimler şexsi kabinete yerleşdirdikde bizde açılmır hemin vesaitler

8. Qb və qiymətlər sistemə gec oturur

9. Dizayn və arxitektura olaraq heç yaxşı deyil. Düzəliş etmək üçün müraciət etmişdik

10. saytda giriş balı,imtahan nəticəsi,və ümumi nəticə hamısı olsa daha yaxşı olar. Bizdə giriş balı yazılmır həm imthan nəticəsi çıxanda deyilir bizə. Amma ki giriş balını imtahana girənə kimi bilsək daha yaxşı olardı

11. saytda giriş balı,imtahan nəticəsi,və ümumi nəticə hamısı olsa daha yaxşı olar. Bizdə giriş balı yazılmır həm imthan nəticəsi çıxanda deyilir bizə. Amma ki giriş balını imtahana girənə kimi bilsək daha yaxşı olardı

6. Saytda nələri dəyişmək, əlavə etmək istəyərdiniz ?

1. jurnala nəsə yazıdlığı anda şəxsi kabinete düşməsini

2. Xəbərləri bəzən vaxtla tapmaq lazım olur, xüsusi kalendar olsa istədiyimiz ayı seçməklə köhnə xəbərləri izləmək olar

3. Tələbələrin təcrübə mərkəzlərinə yönəlməsi üçün təcrübə mərkəzi yaradılsa çox yaxşı olar həmdə sayt vasitəsilə həmən mərkəzlə əlaqə saxlamaq imkanı olsa yaxşı olar

4. 0 dan yığılması - Esas demek istediyim sayt ( Security terefli demek olarki zeifdi ). Biri sexsi kabinete attack elese rahatliqla melumatlari elde ede biler sehv etmiremse ssh açığı ile girmek olur( JavaScript aciqlarindan biridi ). Bu movzulari nezere almasaq sayt o qeder hisse var ki ve bu hisseler tam aktiv istifade olunurmu orası biraz "?" - di ( Misal olaraq: Men user-am ama siz menim önüme 5 sehifelik sadece qeydiyyat olma ekranı çıxardırsız bu zaman user hem vaxtini hemde sayt istifadesi cetinlesir ( Bunu her hansi bir misal olaraq deyirem ). Saytda çox movzunun olması yaxşıdı ama buna giriş asanlasdirmaq tecrübeli developer-in yenilikçiliyi, innovativ düşüncesine esaslanir.

5. Saytın langing page'i xaotik vəziyyətdə, hər yerdə mənasını bilmədiyimiz logolar və buttonlar var. Ümumi UI/UX tərəf heç yaxşı deyil. Page dizaynı brand identitiy'ə uymur. Yaxşı olardı ki, işini bilən bir UI/UX dizayner və WebDev təmin edəbiləcək angentliklə işləyib, saytı yoluna qoyasınız. Ən azından saytı dizayn edərkən uğurlu işlərdən moodboard toplayıb referans alaraq iş görmək olardı. Ümumi formada həm yerli həm beynəlxalq sferada ən yaxşılardan olmaq kimi iddiası olan bir universitet üçün yaxşı təəssürat bağışlamır.

6. Məsələn qbları biz bir bir sayırıq onun yerine jurnalda ki kimi hansısa xanada bir fənnən olan bütün qbların sayını göstərən xana olsa ela olar. Bundan əlavə hansı ders neçə saatdı oda yazılsa əla olar çünki bəzən qarışdıra bilirik daha rahat olması üçün

7. daha maraqlı dizayn əlavə oluna bilər

8. Dizayn cox pisdi, sayt ozu praktik deyil elebir Word programinda duzeldilib dizayni rengleri uygun gelmir bir birine ve aesthetic deyil.

## *Təkliflər*

*1. Mobil yönümlü olması.*

*2. Kalendarın olması ( hər hansı bir tarixli xəbəri tapmaq üçün)*

3. *Tələbələrin ən çox maraqlandıran sualların-cavablarının yerləşdirilməsi*
4. *Rektorla əlaqə bölməsi*
5. *Hazırki tələbə sayı və məzun sayının qeyd olunması giriş hissədə*
6. *Xəbərlərin fotoları ilə birgə ön səhifədə göstərilməsi*
7. *Universiteti tanıdan yeni videoçarxın olması(media mərkəzi)*
8. *Saytın dizaynının və effektlərin : Koç universitesi, Sabancı universiteti və.s kimi dəyişdirilməsi.*
9. *Klublara qeydiyyat hissəsinin dəyişdirilməsi*
10. *Saytda müəllimlər , şöbələr haqqında məlumatların yerləşdirilməsi*
11. *Saytın giriş şəklinin və digər görüntülərin dəyişdirilməsi*
12. *Hakkımızda və Maliyyə hesabatı bölməsində səhvliklərin düzəlməsi*
13. *Logoların daha az yer tutması və çevirmək mexanizmi ilə yerləşdirilməsi*
14. *Saytda video qoymaqda yaranan problemin aradan qaldırılması.*
15. *Admin panelin yenilənməsi*

*Hesabat linki:* *https://docs.google.com/forms/d/1KSwGzGaDMGMQY03k-TJohJdSUoQpkh_lnOQ0lF5Mgzk/edit#responses*